31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür

# Vahid ideya ətrafında

**Milli birliyin ideoloji əsası olan azərbaycançılıq ideyası və məfkurəsi ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyev tərəfindən formalaşdırılmışdır. Dünya azərbaycanlılarının birliyi, dövlət müstəqilliyimizin dönməzliyi, Vətənin bütövlüyü, mənəvi-əxlaqi dəyərlərə sadiqlik, vətəndaş azadlıqları bu məfkurənin əsaslarındandır. 31 dekabr Azərbaycan tarixinə Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi daxil olmuşdur. Bu istiqamətdə ilk addım ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il dekabr ayının 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında atıldı. Sessiyada Milli Həmrəylik və Birlik Gününün təsis olunması ilə bağlı qərar qəbul edildi.**

**Bu tarixi sessiyadan doqquz gün sonra — dekabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi elan olunması haqqında sərəncam verdi.**

**Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması istiqamətində Dünya Azərbaycanlılarının 2001-ci ilin noyabrında Bakıda keçirilən I qurultayından sonra xeyli iş görülmüşdür. İndi dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimiz Həmrəylik Gününü təntənə ilə qeyd edirlər. Əməkdaşımız 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı müxtəlif ölkələrdə yaşayan diaspor rəhbərləri ilə görüşüb söhbət etmiş, onların bayramla bağlı ürək sözlərini qələmə almışdır.**



**Vüqar NOVRUZOV, Moldova Azərbaycanlıları Konqresinin sədri, "Tərəqqi" medallı:**

—1993-cü ilin iyun ayında tarixi zərurət və xalqın tələbi ilə ulu öndərimiz Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıdışından sonra Azərbaycanın ictimai həyatının bütün sahələrində, o cümlədən dünya azərbaycanlıları ilə əməkdaşlıq istiqamətində keyfiyyət və mahiyyətcə yeni mərhələ başlandı. Heydər Əliyev çoxsahəli fəaliyyətində daha bir tarixi missiyanı — dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olmaq missiyasını öz üzərinə götürmüş və böyük uğurla həyata keçirmişdir. Onun müdrik siyasəti nəticəsində dünya azərbaycanlıları ilə iş dövlət əhəmiyyətli strateji məsələyə çevrilmişdir. Bu mühüm işin konsepsiyası dünya azərbaycanlılarının xalqımızın ayrılmaz hissəsi kimi qəbul edilməsi, Azərbaycan Respublikasının bütün azərbaycanlıların Vətəni sayılması, həmvətənlərimizin əqidə və əməl birliyi zəminində elmi şəkildə formalaşması, lobbiçilik perspektivi, azərbaycançılıq ideyasının dövlət siyasəti səviyyəsində qaldırılması da məhz Heydər Əliyev tərəfindən irəli sürülmüşdür.

Heydər Əliyevin rəhbərliyi ilə dünya azərbaycanlılarının doğma Vətənə xidmət edən mütəşəkkil qüvvəyə çevrilməsi yolunda dövlət səviyyəsində işlər görülmüşdür.

Milli birliyin, ilk növbədə mənəviyyat-məfkurə birliyi olduğunu təsbit edən milli öndərimiz, ürəklərdə işıq heykəlinə çevrilən Heydər Əliyevin 1996-cı ilin iyul ayında Almaniyaya səfəri zamanı Bonn şəhərində soydaşlarımızla görüşdə dərin məzmunlu nitqində müdrik tövsiyələrindən biri fikir, əməl birliyinə aid idi: **"Hamının qəlbi, fikri, gələcəyə baxışı və Azərbaycan haqqında fikirləri bir olsa, əlbəttə ki, respublikamız da öz müstəqilliyini bundan sonra da möhkəmləndirər, inkişaf yolunu məharətlə keçə bilər".**

Ümumiyyətlə, xalqımızın mənəvi birliyi, azərbaycançılıq ideyaları Dünya Azərbaycanlılarının Bakıda keçirilən qurultaylarında öz parlaq təcəssümünü tapmışdır.

Bu gün Moldovada yaşayan həmvətənlərimizin sürətlə təşkilatlanması prosesi müşahidə edilməkdədir. Vurğulamaq lazımdır ki, Azərbaycan Respublikası bu prosesə dəstək verir və onu daha da təkmilləşdirməyə, soydaşlarımızın diaspor quruculuğu sahəsində fəaliyyətini koordinasiya etməyə çalışır. Məhz buna görə də Moldovadakı həmvətənlərimiz mütəşəkkil qüvvəyə çevrilmişlər.

Onlar yaşadıqları ölkədə milli adət-ənənələrimizi ləyaqətlə qoruyub saxlayır, ulu öndərimiz Heydər Əliyevin ad gününü, Novruz bayramını, Milli Qurtuluş Gününü, Qurban bayramını, Respublika Gününü, Həmrəylik Gününü və digər bayramları təntənə ilə qeyd edir, həmçinin 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Mart qırğını ilə bağlı anım mərasimi keçirir, Azərbaycan həqiqətlərinin dünya xalqlarına çatdırılmasına maksimum səy göstərirlər.

Bu gün dünyada yaşayan bütün azərbaycanlılar kimi, Moldovadakı soydaşlarımız da sevinc içərisindədir. Fəxr edirik ki, 2015-ci ildə ilk Avropa Oyunları, Xəzər sahillərində, Bakı şəhərində keçiriləcəkdir.



**Mobil MƏMMƏDOV, Özbəkistan Azərbaycanlıları Milli Mədəniyyət Mərkəzinin sədri:**

—Milli birliyin ideoloji əsası olan azərbaycançılıq ideyası ümummilli liderimiz Heydər Əliyev tərəfindən formalaşdırılmışdır. Dünya azərbaycanlılarının mənəvi birliyini, Vətənə bağlılığını təmin edən bu məfkurənin mühüm addımları Heydər Əliyevin "Yeni–2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə öz konseptual ifadəsini tapmışdır.

Bu bayram günündə Özbəkistanda yaşayan 60 mindən çox azərbaycanlılar adından Həmrəylik Günü münasibətilə dünyada yaşayan həmvətənlərimizi qəlbən təbrik edirəm.

Dünyanın müxtəlif yerlərində məskunlaşmış azərbaycanlıların mütəşəkkil diaspor kimi formalaşması lobbi quruculuğu sahəsində Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Vurğulamaq lazımdır ki, 1993-cü ilin iyun ayında tarixi zərurət və xalqın təkidli tələbi ilə ulu öndərimiz Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıdışından sonra ölkənin ictimai həyatının bütün sahələrində, o cümlədən dost Özbəkistanda yaşayan minlərlə həmyerlilərimizlə əlaqələrin möhkəmləndirilməsi istiqamətində keyfiyyət və mahiyyətcə yeni mərhələ başlanmışdır.

Bu gün Özbəkistandakı soydaşlarımız bir bayraq altında birləşərək monolit qüvvəyə çevrilmişlər. Ulu öndərimiz Heydər Əliyevin belə bir fikrini xatırlamaq yerinə düşərdi: **"Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq ... öz dilini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır".**

Qürbətdə yaşasaq da, qəlbimiz həmişə Azərbaycanda, Cənubi Qafqazın lider dövlətinə çevrilən bir məkandadır. Qürur hissi keçiririk ki, tarixi vətənimiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin titanik səyi nəticəsində dinamik inkişaf yolundadır, bu gün Bakı və ölkəmizin digər regionları gözəlliyi, füsunkarlığı ilə diqqəti cəlb edir.

Bu gün Özbəkistanda milli diasporumuzun təşəkkül tapmasında Azərbaycanın bu ölkədəki səfiri Hüseyn Quliyevin xidmətləri xüsusilə qeyd olunmalıdır. Son illər Özbəkistanda yaşayan azərbaycanlıların təşkilatlanması, Azərbaycan icmalarının fəaliyyətinin koordinasiya edilməsi işinin təkmilləşdirilməsi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Özbəkistanda məskunlaşmış həmvətənlərimiz arasında milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, adət-ənənələrimizin yaşadılması istiqamətində ardıcıl və məqsədyönlü işlər görülür.

Milli diasporumuzun təşəbbüsü ilə Daşkənddə, Səmərqənddə, Buxarada, Sırdəryada, Nəvaidə və digər bölgələrdə milli bayramlarımızla, habelə 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Mart qırğını ilə bağlı silsilə tədbirlər həyata keçirilir və Azərbaycan həqiqətləri dünya xalqlarına çatdırılır, erməni vəhşiliyindən bəhs edən filmlər, qəzet və jurnallar nümayiş etdirilir.

Milli Mədəniyyət Mərkəzi idman və idmançılara qayğı, diqqət göstərir. Soydaşlarımız müxtəlif idman yarışlarında fərqlənir, fəxri kürsünün yüksək pilləsində dayanırlar.

Azərbaycanlı gənclər Təşkilatının fəaliyyəti də təqdirəlayiqdir. Bu sahədə təşkilatın sədri, milli diasporumuzun təşəkkül tapmasında böyük xidmətləri olan Ayna Zeynalovanın fəaliyyəti təqdirəlayiqdir.



**Əfqan SALMANOV, Azərbaycanın Ukraynanın Xarkov şəhərindəki konsulu, Sumı şəhərinin deputatı:**

—Hazırda dünyanın müxtəlif ölkələrində 300-ə yaxın Azərbaycan icma və birlikləri fəaliyyət göstərir və diasporumuzun təşkilatlanma prosesi bu gün də davam etməkdədir. Bu gün xaricdə yaşayan soydaşlarımızın sürətlə təşkilatlanması prosesi müşahidə olunur. Azərbaycan Respublikası bu prosesə dəstək verir və onu daha da təkmilləşdirməyə, soydaşlarımızın diaspor quruculuğu sahəsində fəaliyyətini koordinasiya etməyə çalışır.

Azərbaycan Respublikasının diaspor quruculuğu sahəsindəki dövlət siyasətinin başlıca qayəsi ümummilli lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideoloji prinsiplərini həyata keçirməkdən ibarətdir. Ötən dövrdə bu strategiya istiqamətində mühüm addımlar atılmış, soydaşlarımızın təşkilatlanması, azərbaycançılıq ideyalarının gerçəkləşdirilməsi üçün bir çox problemlərin həllinə nail olunmuşdur.

Dünya azərbaycanlılarının birliyi məsələsi azərbaycançılıq ideologiyasının reallaşdırılması mexanizmi kimi qəbul edilir və bu sahədə həyata keçirilən bütün tədbirlər məhz həmin amala əsaslanır.

Müxtəlif ölkələrdə fəaliyyət göstərən icma və birliklərin vahid təşkilatlarda birləşdirilməsi dünya azərbaycanlılarının ümumi birliyinin təməl prinsiplərindəndir. Bu strategiya uğurla davam etdirilir.

Qeyd etmək lazımdır ki, son illərdə Ukrayna-Azərbaycan dostluq əlaqələri yüksələn xətlə inkişaf edir. Bu dostluğun memarı isə ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyevdir.

Heydər Əliyev Ukraynada rəsmi səfərlərdə olarkən həmişə milli diasporumuzla yaxından maraqlanmış, onların vahid ideya ətrafında birləşməsi üçün soydaşlarımıza lazımi tövsiyələr vermişdir.

Ukrayna-Azərbaycan əlaqələrinin möhkəmləndirilməsindəki misilsiz xidmətlərinə görə Heydər Əliyev "Yaroslav Mudrı" ordeninə layiq görülmüşdür.

Bu gün Ukrayna-Azərbaycan əməkdaşlığı Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ukraynanın müxtəlif şəhər və vilayətlərində bu gün mütəşəkkil qüvvəyə çevrilən diasporumuz var. Milli diasporumuzla bağlı mütəmadi olaraq Azərbaycan Televiziyasının Ukrayna və Şərqi Avropa dövlətləri nümayəndəliyi tərəfindən maraqlı verilişlər hazırlanır.

Bu gün Ukraynanın müxtəlif şəhər və vilayətlərində 500 minə yaxın azərbaycanlı yaşayır. Onlar müxtəlif sahələrdə tükənməz enerji ilə çalışır, milli diasporumuzun mütəşəkkil qüvvəyə çevrilməsinə səy göstərirlər.

Son dövrlərdə Azərbaycanın Xarkovdakı konsulluğunun xətti ilə yaddaqalan tədbirlər keçirilir.

Bu günlərdə Xarkov şəhərində 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı keçirilən geniş bayram mərasimi bunun bariz nümunəsidir.



**Natiq BAĞIROV, Belarus Azərbaycanlıları Konqresinin sədri, "Şöhrət" ordenli:**

—Dünyada yaşayan azərbaycanlıların vahid bir amal ətrafında birləşdirilməsi istiqamətində əldə olunmuş nailiyyətlər ümummilli liderimiz, müdrik insan Heydər Əliyevin adı və məqsədyönlü fəaliyyəti ilə bağlıdır.

Azərbaycan diasporunun inkişafı və mütəşəkkil qüvvəyə çevrilməsi Dünya Azərbaycanlılarının I Qurultayından sonra dövlət siyasətinin prioritet məsələlərindən birinə çevrilmişdir.

Ulu öndərimiz Heydər Əliyev Azərbaycan Respublikasının dünyaya inteqrasiyası, iqtisadi-mədəni inkişafı, müstəqilliyimizin möhkəmləndirilməsində əhəmiyyətli rol oynamış çoxsaylı səfərləri zamanı həmvətənlərimizlə görüşlər keçirilir, onların problemləri ilə maraqlanır, dəyərli tövsiyələr verir, soydaşlarımızı Azərbaycanın ictimai, iqtisadi, mədəni həyatında fəal iştiraka səsləyirdi.

Azərbaycan mənim ürəyimdir—deyən Heydər Əliyev diaspor ilə işi yalnız ölkəmizin siyasi-iqtisadi maraqlarının tərkib hissəsi olaraq deyil, ilk növbədə milli-mənəvi məsələ kimi irəli sürürdü.

Vurğulamaq lazımdır ki, bu gün Belarusda yaşayan soydaşlarımız da çevik və mütəşəkkil qüvvəyə çevrilmişdir. Həmvətənlərimizin hər birinin qəlbi Vətən, Azərbaycan eşqi ilə döyünür.

Diaspor fəallarının səyi nəticəsində ilboyu yaşadığımız ölkədə müxtəlif tədbirlər keçirir, Azərbaycan mədəniyyətinin, incəsənətinin təbliğinə üstünlük veririk.

Son illər Prezident İlham Əliyevin titanik səyi nəticəsində Azərbaycanda idmanın sürətli inkişafı, bir çox mötəbər yarışlarda uğurlu nəticələrə imza atılması, 2015-ci ildə Avropanın ilk oyunlarının Bakıda keçirilməsi yaşadığımız qürbət ölkədə bizi ürəkdən sevindirir.

Bu gün Belarus və Azərbaycan arasında sıx əməkdaşlıq mövcuddur. Belarusun ayrı-ayrı şəhərlərində Böyük Vətən müharibəsində misilsiz şücaət göstərmiş həmyerlimiz, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun və digər azərbaycanlı–Sovet İttifaqı Qəhrəmanı Aslan Vəzirovun büstlərinin ucadılması buna bariz nümunə ola bilər.



**Rövşən TAĞIYEV, Ukrayna Birləşmiş Azərbaycanlılar Konqresinin sədri:**

—Dünya azərbaycanlılarının vahid ideya və məqsəd ətrafında birləşmiş çevik diasporun, güclü lobbinin yaradılması üçün görülmüş tədbirlər azərbaycançılıq ideologiyasının uğurla həyata keçirilməsinə stimul yaratmışdır. Qazanılmış nailiyyətlər Azərbaycan Respublikası və onun hüdudlarından kənarda yaşayan azərbaycanlılar arasında sosial-mədəni, ictimai-siyasi əlaqələrin qurulmasında və möhkəmləndirilməsində, dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımızın təşkilatlanaraq vahid güc mərkəzi kimi özünü tanıtmasında mühüm rol oynamışdır. Məhz bu uğurların nəticəsində azərbaycançılıq ideologiyası ümummilli məna kəsb etməyə başlamış, diasporun inkişafının konseptual əsaslarını müəyyənləşdirən amilə çevrilmişdir.

Dünya Azərbaycanlılarının Bakıda keçirilən III Qurultayından sonra xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan icmaları arasında əlaqələrin yaradılması, ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında rolunun artırılması, soydaşlarımızın təşkilatlanması prosesinin təkmilləşdirilməsi, gənclərin diaspor quruculuğu işinə fəal cəlb olunması, milli-mənəvi dəyərlərimizin qorunması, həmvətəmlərimizin insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində bir sıra uğurlar qazanılmışdır.

Avropanın böyük dövlətlərindən olan dost Ukraynada da milli diasporumuzun təşəkkül tapması, bu ölkədə yaşayan 500 minə qədər soydaşımızın təşkilatlanması, Azərbaycan icmalarının fəaliyyətinin koordinasiya edilməsi işinin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü iş aparılır. Həmvətənlərimiz arasında milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, adət-ənənələrimizin yaşadılması istiqamətində ardıcıl və məqsədyönlü işlər görülür. Ukraynanın müxtəlif şəhərlərində, Kiyev şəhərində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə müxtəlif səpkili tədbirlər, etiraz aksiyaları, mitinqlər, küçə yürüşləri, elmi-praktik konfranslar, simpoziumlar təşkil olunur, foto və rəsm sərgiləri, filmlər nümayiş etdirilir. Bir sözlə, diaspor təşkilatlarında erməni təbliğatına sipər çəkilir.

Ukrayna Birləşmiş Azərbaycanlılar Konqresinin regional təşkilatlarından olan Xarkov, Dnepropetrovsk, İrpen, Lvov, Odessa və digər şəhərlərdə diaspor fəallarının birgə səyi nəticəsində il ərzində müxtəlif bayram tədbirləri, həmçinin 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Mart qırğını ilə bağlı geniş anım mərasimləri keçirilir. Belə mərasimlərə azsaylı xalqların nümayəndələri də dəvət olunur.

Bu bayram günündə qəlbimiz iftixar hissi ilə döyünür. Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin siyasi kursunu davam etdirərək soydaşlarımızın tarixi Vətənin ümumi mənafeləri çərçivəsində həmrəyliyinin təmin olunmasına, milli maraqlarımızın qorunmasında diasporun imkanlarından daha səmərəli istifadə edilməsinə istiqamətlənmiş siyasət yeritməkdədir.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə yer kürəsinə səpələnmiş bütün həmvətənlərimizi təbrik edir, tövsiyə edirəm ki, həmişə, hər yerdə tarixi Vətənin təəssübkeşi olsunlar!



**Ədalət HÜSEYNOV, Həştərxan vilayəti Ümumrusiya Azərbaycanlıları Konqresinin sədri:**

—Rusiya Federasiyasında yaşayan soydaşlarımız tarixi Vətənlə sıx əlaqələr qurmağa çalışır. Azərbaycan həqiqətlərinin dünya xalqlarına çatdırılmasında əllərindən gələni əsirgəmirlər. Həmvətənlərimizin icma və birliklər ətrafında sıx birləşməsi, tarixi Vətənlə əlaqələrin möhkəmlənməsi, milli-mənəvi dəyərlərimizə bağlılığının artırılması, mənəvi irsimizin ölkəmizin hüdudlarından kənarda təbliğinə nail olmaları, diaspor təşkilatının fəaliyyətinin gücləndirilməsi, lobbi quruculuğu kimi çətin və zaman tələb edən vəzifələrin yerinə yetirilməsinə imkan yaratmışdır.

Dünya Azərbaycanlılarının Bakıda keçirilən qurultaylarından sonra Rusiya Federasiyasındakı diaspor təşkilatları mütəşəkkil qüvvəyə çevrilmişdir. Qeyd etmək lazımdır ki, Rusiya Federasiyasının müxtəlif bölgələrində olduğu kimi, Həştərxanda da milli diasporumuz təşəkkül tapmış və monolit qüvvəyə çevrilmişdir.

Vurğulamaq lazımdır ki, bu gün Həştərxandakı soydaşlarımızın təşkilatlanması prosesi geniş vüsət almış və bu sahədə ciddi keyfiyyət dəyişiklikləri müşahidə olunmaqdadır.

Fərəhlə qeyd olunmalıdır ki, Həştərxanla Bakının Nərimanov rayonu arasında bu gün dostluq, qardaşlıq əlaqələri mövcuddur. Son illər Həştərxanda bir çox layihələr həyata keçirilmişdir. Bu sahədə Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevin gördüyü işlər danılmazdır.

Həştərxanda Knyaz Vladimirin abidəsinin təntənəli açılış mərasimi tarixə qızıl hərflərlə yazılmış, Azərbaycan-Rusiya əlaqələrinin daha da möhkəmlənməsinə yeni bir töhfə olmuşdur. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə həmvətənlərimizi təbrik edir, onlara birlik, həmrəylik arzulayıram.



**Tomris AZƏRİ, Amerika Azərbaycanlıları Cəmiyyətinin sədri, "Şöhrət" ordenli:**

—İlk öncə Amerikadakı Azərbaycan və türk diaspor təşkilatları adından Həmrəylik Günü münasibətilə dünyadakı həmvətənlərimizi təbrik edirəm. Biz Azərbaycandan çox-çox uzaqlarda yaşayırıq. Qəlbimiz həmişə doğma Vətəndə, Xəzər sahillərindədir. Yurdumun, millətlər içində seçilən zəngin mədəniyyətə malik olan xalqımın nailiyyətləri ilə fəxr edirəm. Qürur hissi keçirirəm ki, Azərbaycan bu gün Cənubi Qafqazda lider dövlətə çevrilmişdir, ölkəmiz dinamik inkişaf yolundadır.

Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Paytaxtın görkəmi buraya qədəm qoyanları heyran edir. Bu isə Prezident İlham Əliyevin titanik səyinin nəticəsidir. Vurğulamaq istərdim ki, Amerikadakı azərbaycanlıların fəaliyyəti güclənir, bu ölkədəki türk və yəhudi diaspor təşkilatları ilə əməkdaşlıq genişlənir.

Amerikadakı türk icmalarının rəhbərləri ilə görüşlər zamanı erməni diasporunun Azərbaycan və Türkiyə əleyhinə apardığı təbliğat kampaniyasının qarşısının alınması yolları müzakirə olunur. Nyu-York şəhərində ənənəvi türk yürüşü təşkil edilir. Yürüşdə türk icmaları ilə yanaşı, Azərbaycan diaspor təşkilatlarının təmsilçiləri də fəal iştirak edirlər.



**Nuru KAZIMOV, Komi Respublikası Azərbaycan Milli Mədəniyyət Mərkəzinin sədr müavini:**

—Dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlıların mütəşəkkil diaspor kimi formalaşması, lobbi quruculuğu Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən biridir. 1993-cü ildə xalqın təkidli tələbi ilə dahi şəxsiyyət, milli öndərimiz Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı ilə Azərbaycanın ictimai həyatının bütün sahələrində, o cümlədən dünya azərbaycanlıları ilə əməkdaşlıq istiqamətində keyfiyyət və mahiyyətcə yeni mərhələ başlanmışdır. Ulu öndərimiz Heydər Əliyev dünyada yaşayan azərbaycanlıların milli birlik və həmrəylik hisslərinin güclənməsi, onların ümummilli ideyalar, Azərbaycan dövlətçiliyi ətrafında sıx birləşməsi üçün daim geniş fəaliyyət göstərmiş, həmişə həmvətənlərimizə bir bayraq altında birləşib, monolit qüvvəyə çevrilməyi tövsiyə etmişdir.

Vurğulamaq lazımdır ki, Dünya Azərbaycanlılarının qurultaylarından ötən dövrdə dünya azərbaycanlılarının həmrəyliyinin məzmunca zənginləşdirilməsi, təşkilati hüquqlarının təkmilləşdirilməsi üçün çox iş görülmüşdür. Azərbaycanlıların təşkilatlanması işi daha da güclənmiş, milli-mənəvi və ümumbəşəri dəyərləri üzvi şəkildə birləşdirən, Azərbaycan xalqına və dövlətinə bağlılıq hissinə əsaslanan azərbaycançılıq ideyası bütün dünyada yaşayan həmvətənlərimiz arasında geniş yayılmışdır.

İndi xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin həyata keçirilməsində yeni mərhələ yaşanmaqdadır. Bunu Komi Respublikasında yaşayan həmvətənlərimizin fəaliyyətində də aydın hiss etmək olar.

Azərbaycan Milli Mədəniyyət Mərkəzində soydaşlarımızın vahid ideya ətrafında birləşməsinə maksimum səy göstərilir. Həmvətənlərimizin ümummilli ideyalar ətrafında sıx birləşməsi üçün əlverişli şərait yaradılmışdır. Biz yaşadığımız ölkədə diaspor fəallarının gücü ilə əlamətdar milli bayramlara həsr olunmuş təntənəli yığıncaqlar, həmçinin 20 Yanvar faciəsi, Xocalı soyqırımı ilə bağlı anım mərasimləri keçiririk.

Mərkəzin təşəbbüsü ilə Komidə azərbaycanlılardan ibarət "Neftçi" futbol komandası yaradılmışdır. Bu komanda yaxınlarda yüksək oyun nümayiş etdirmiş və "Sever" kubokunun sahibi olmuşdur. "Zirvə" mahnı və rəqs ansamblının fəaliyyəti də təqdirəlayiqdir. Ansamblın üzvləri milli bayramlarımızda maraqlı proqramla çıxış edirlər. Azərbaycanlılar nərd və şahmat oyunlarına da böyük maraq göstərir. Yaxınlarda nərd üzrə keçirilən yarışlarda şəxsən mən erməni rəqibimi məğlub edərək "qızıl zər" mükafatının sahibi olmuşam. Mədəniyyət naziri Qalina İvanovna tərəfindən qalib kimi mükafatlandırılmışam. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Komi Respublikasında yaşayan soydaşlarımızı təbrik edirəm.



**Akif MƏMMƏDOV, Almaniyanın Bavariya şəhərində Beynəlxalq Diasporun sədri:**

—Bu gün harada yaşamasından asılı olmayaraq bütün həmvətənlərimiz Azərbaycan Respublikasının tərəqqisi, çiçəklənməsi naminə əllərindən gələni əsirgəmirlər. Azərbaycan Respublikasının iqtisadi, siyasi və mədəni inkişafı, beynəlxalq münasibətlərin bərabərhüquqlu üzvü kimi çıxış etməsi, nüfuzlu iqtisadi və siyasi qurumlara inteqrasiyası, bəşər sivilizasiyasında layiqli yer tutması yolunda atılan addımlar dünya azərbaycanlılarının birgə maraqlarına cavab verir və ölkəmiz tərəfindən daim dəstəklənir.

Güclü diasporun mövcudluğu doğma Vətənin güclənməsinə xidmət etməklə yanaşı, həm də dünya azərbaycanlıları arasında geniş əlaqələrin qurulması, onların milli və vətəndaş hüquqlarının qorunmasında səylərinin birləşdirilməsinə zəmin yaradır. Vurğulamaq lazımdır ki, bu gün Almaniyanın Bavariya şəhərində milli diasporun təşəkkül tapmasına, soydaşlarımızın çevik və mütəşəkkil qüvvəyə çevrilməsinə qayğı və diqqət göstərilir.

Bavariyada müxtəlif peşə sahibləri olan mindən çox həmvətənlərimiz yaşayır. Biz diaspor fəallarının iştirakı ilə yaşadığımız ölkədə Azərbaycanın milli bayramları, ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyevin ad günü ilə bağlı təntənəli mərasimlər keçiririk. Həmçinin 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Mart qırğını tədbirləri də keçirilir.

Məlumdur ki, ermənilər 2015-ci ildə uydurma soyqırımın 100 illiyini keçirmək üçün dəridən-qabıqdan çıxır. Ona görə də Bavariyadakı beynəlxalq diasporumuz erməni təbliğatının qarşısına sipər çəkmək üçün lazımi tədbirlər görür.

Son olaraq Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə dünyada yaşayan bütün həmvətənlərimizi təbrik edir, onlara birlik, həmrəylik diləyirəm.

**Söhbəti yazdı:
Qədir ASLAN,
Əməkdar jurnalist.**